kuporosu, yuyucu toz olan qablara tullayır, ya da suya azca neft əlavə edirlər. İlbizlərin üzərinə duz, azot, fosfor və kalium gübrəsi, əhəng tökmək ziyanverici ilə mübarizə vasitəsi yox, onun məhv edilməsi üsulu sayılmalıdır. Onda ilbizi sadəcə olaraq tapdalayıb əzmək, məhlula tullamaq onun üzərinə duz və sairə maddələr tökərək gözləməkdən daha yaxşıdır.

**Sahənin perimetrii boyunca əhəng, gübrə, kül, tütün tökməyin də xeyiri azdır.** Yağışlı havada bu materiallar gücünü itirir, yaxud yağış suyu ilə yuyulub gedir və onları yenidən tökmək lazım gəlir.

Hazırda ilbizlərlə mübarizədən ötrü kimyəvi preparat – metalhidriddən istifadə olunur. Bu preparatın quru dənələrini sahələrə düzürlər. Bu dənələr ilbizləri cəlbetmə xassəsinə malikdir. İlbizlər onları axtarıb tapır və yeyir. Metalhidrid bağırsaq zəhəri kim təsir göstərir. Lakin preparatdan məhsul yığımına 20 gün qalmışa qədər istifadə edilməlidir. Əgər sahədə çoxlu ilbizlər görünərsə, metalhidrid məhlulu ilə çiləmə aparıla bilər. İlbizin üzərinə düşən məhlul onun orqanizminə daxil olur və zəhər kimi təsir göstərir. Lakin ilbizin dərisi zəhərli maddəyə toxunanda tez selik ifraz edir, selik zəhəri yuyur. Ona görə də bir azdan sonra çiləməni təkrar etmək lazımdır.

**Çoxdan məlumdur ki, ilbizlər cəfəri bitkisinin iyini xoşlamır.** Buna görə sahələri onlardan qorumaq üçün sahənin perimetri boyunca cəfəri əkirlər.


**Lütvəli Quliyev,**
*özəl məsləhətçi*



**Redaktor: F.Nadirov**

İkinci Kənd Təsərrüfatının İnkişafı və Kreditləşdirilməsi Layihəsi

“Masallı Regional Məsləhət Mərkəzinin fəaliyyəti”

Layihə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi tərəfindən maliyyələşdirilir.

İcraçı: Aqro-Məsləhət Qeyri Hökumət Təşkilatı

Ünvan: Bakı, C.Cabbarlı 40.
Tel/faks 498188, 5967018.

“Kösər” mətbəəsində çap olunmuşdur. Sayı 5000.


# Bitkilərin məhsuldarlığına ilbizlər böyük ziyan vurur




Bakı-2009

Kənd təsərrüfatı bitkilərinin məhsuluna ilbizlər böyük ziyan vurur. Onlar xüsusən yağışlı yay və payız aylarında daha da fəallaşır. Əgər digər çoxsaylı ziyanvericilər hər hansı bir bitkidə, yaxud bir ailəyə mənsub olan bitkilərdə tüfeylilik edirlərsə, ilbizlər 150 növə yaxın bitkiləri zədələyir. Onlar cavan bitkiləri tamamilə məhv edə bilir.

**İlbizlər yarpaqlarda deşiklər açır, kökümeyvəlilərdə oyuqlar əmələ gətirir, çiyələklərin meyvələrini yeyir.** Onlar həm tərəvəz və çiyələyi korlayırlar, həm də boz çürümə, yalançı unluca şehi və digər xəstəliklərin sporlarını yayır. İlbizlər gecələr nəm yağmurlu havada, gündüz yağış zamanı qidalanır. Quru havada onlar daşların altında, torpaq kəltənlərinin altında, qaranlıq yerlərdə gizlənir. İlbizlər torpağın 5-8 sm dərinliyinə, yaxud alaqların, daşların, yaxud digər əşyaların altında yumurtalar qoyur. Adətən yumurtalar qışlayır, mayda, iyunun əvvəlində onlardan cavan ilbizlər çıxır ki, bunlar da 2-3 aydan sonra yetişkənliyə çatırlar. Bu cavan ilbizlər tərəvəzlərin çıxışlarına, kələm şitilləri əkinlərinə böyük ziyan vurur. Odur ki, toxumların səpinini və şitillərin əkilməsini gecikdirmək olmaz, bu işləri erkən aqrotexniki müddətlərdə aparmaq məqsədəmüvafiqdir, çünki bu zaman bitkilər öz inkişafının ən zəif stadiyalarını cavan ilbizlərin kütləvi görünməsinə qədər başa çatdırır. İlbizlərlə mübarizə aparmaq çətindir: kənd təsərrüfatı ədəbiyyatında təsvir olunmuş bir çox üsullar və məsləhətlər mürəkkəb və az səmərəlidir. Bu ziyanverici ilə mübarizəni başqa ziyanvericilərlə olduğu kimi başlamaq lazımdır – alaqları, xüsusən istixanaların yaxınlığındakı alaqları vaxtında məhv etmək lazımdır. **Ləklər arasındakı otu biçmək, nəm sahələri qurutmaq vacibdir. Əkinləri sıxlaşdırmaq olmaz.** Əkinlər seyrək olan yerlərdə torpaq yumşalmış olur və kəltənlərə rast gəlinmir, belə yerlərdə ilbizlər nadir hallarda görünür. Təmizlənmiş alaqlar məhv edilməli, onlar ləklərdə və cərgələr arasında saxlanmamalıdır. Belə alaq komalarında ilbizlər susuzlaşmadan və öz düşmənlərindən xilas olur, şaxtalarda isə soyuqlardan qorunur.

İlbizlərin düşmənləri kirpilər və qurbağaların boz və yaşıl növləridi. Onlar gecə qaranlığında ova çıxır və bütün gecəni hava işıqlaşana qədər ov edir. Təəssüf ki, bir çox təsərrüfatçılar həşəratların və suda-quruda yaşayanların hansının dost, hansının isə düşmən olduğunu yaxşı bilmirlər.

**İlbizlərlə mübarizənin ən səmərəli üsulu onların əllə yığılıb məhv edilməsidir.** Qaranlıq düşən kimi təsərrüfatçı fonar işığında öz ləklərinə baş çəkir və yemlənməyə çıxmış ilbizləri toplayır. Əlbəttə, bu çox əziyyətli işdir. Odur ki, ilbizlərin yığışdırqları yerlərdə tələlər düzəltmək daha səmərəlidir. Nəm torpağın üstünə ot çəngəsi, yaş dəsmal, taxta, faner, yaxud karton qırıqları, kələm, pıtraq, yaxud balqabaq yarpaqları qoyurlar. Tələləri sahənin müxtəlif yerlərində, bir-birindən 3-5 m aralı yerləşdirirlər. Səhərisi gün tələləri yoxlayır, onların altında gizlənmiş ilbizləri tapdalayıb əzir, ya içərisində duz, miss